Konrad Adenauer Stiftung

EUROPEAN MOVEMENT AZERBAIJAN
AZƏRBAYCAN AVROPA HƏRƏKATI



# AZƏRBAYCANIN AVROPA YOLU GƏNCLƏRİN GÖZÜ İLƏ

# AZƏRBAYCANIN AVROPA YOLU GƏNCLƏRİN GÖZÜ İLƏ

Bu məqalələr toplusu Konrad Adenauer Fondu və Azərbaycan Avropa Hərəkatının 6-25 may 2013-cü il tarixində keçirdiyi "Avrointeqrasiyada Vətəndaş Cəmiyyətinin Rolu" adlı layihənin tərkib hissəsidir. Məqalədəki fikirlər müəlliflərin şəxsi mülahizələridir və tərəfdaşlar buna görə heç bir məsuliyyət daşımır.

Bakı, Qanun Nəşriyyatı, 2013, 36 səhifə

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az

Konrad Adenauer Fondu (KAS) Almaniyanın Xristian Demokrat İttifaqına (CDU) yaxın siyasi fonddur. CDU-nun həmtəsisçisi və Almaniyanın ilk federal kansleri Konrad Adenauer (1876-1967) xristian-sosial, mühafizəkar və liberal ənənələri bir arada birləşdirib. Azadlıq, ədalət və həmrəylik KAS-ın əsas prinsipləridir. Dünyadakı 70-dən çox büro və 120 ölkədəki layihələri ilə demokratiyanın, hüquqi dövlətçiliyin və sosial bazar iqtisadiyyatının sürətlənməsinə öz töhfəsini verir. Sülhü və azadlığı təmin etmək üçün xarici siyasi və təhlükəsizlik dialoqu, habelə mədəniyyətlər və dinlərarası mübadiləni dəstəkləyir.

Fond və fəaliyyəti barədə daha ətraflı məlumat üçün: **www.kas.de/kaukasus**

Azərbaycan Avropa Hərəkatı (AAH) 2012-ci ildə yaradılıb. AAH-nın əsas məqsədi Azərbaycanın Avropaya inteqrasiya prosesinə dəstək vermək və bu ideyanı özündə birləşdirən qurumların, həmçinin fərdlərin birləşdiyi platforma yaratmaqdır. Hərəkat öz məqsədinə çatmaq üçün sivil metodlardan istifadə etməklə yanaşı, beynəlxalq təşkilatlar, fondlar, digər ictimai və siyasi birliklər, Azərbaycan dövləti və Beynəlxalq Avropa Hərəkatının digər ölkələrdə olan milli şuraları ilə əməkdaşlıq edir. Hazırda Bakıda və 14 regionada fəaliyyət göstərən AAH-nın 1263 fərdi üzvü, 34 assosativ üzvü mövcuddur.

AAH və fəaliyyəti barədə daha ətraflı məlumat üçün: **www.azeuromove.az**

# İçindəkilər

**Suraxanım Ağaverdiyeva**
Azərbaycan Respublikasının xarici siyasəti və ölkənin Avropa məkanına inteqrasiyası .................. 5

**Zaur Mirzə**
Şərq Tərəfdaşlığı: İkitərəfli və çoxtərəfli genişlənmə............................................................................ 11

**Aygül Cəfərova**
Azərbaycanın Avropaya inteqrasiya prosesində Rusiya amili .......................................................... 14

**Fərid Əkbərov**
Avropa Şərq Tərəfdaşlıq Proqramında Azərbaycanın iqtisadi perspektivləri ................................ 18

**İlhamiyyə Babazadə**
Şərq Tərəfdaşlığı Proqramına bir nəzər.................................................................................................... 22

**Məryəmxanım Tağıyeva**
Azərbaycan inteqrasiya yollarında............................................................................................................ 26

**Şəmşir Tərlanov**
Avropa Qonşuluq Siyasəti və Azərbaycandakı ictimai – siyasi durum
Avropa Qonşuluq Siyasətinin əsas vəzifələri ......................................................................................... 28

**Tural Hüseynli**
Ümumdünya Ticarət Təşkilatı...................................................................................................................... 32



## Suraxanım Ağaverdiyeva

*Suraxanım Ağaverdiyeva Bakı Dövlət Universitetinin "Şərqşünaslıq" (İbrani dili və Ədəbiyyatı) fakültəsinin məzunudur. İbrabi dili və ədəbiyyatı, Fəlsəfə, İslamşünaslıq, Psixologiya və İqtisadiyyat ixtisasına daxil olan sahələrdir. Hal-hazırda, "Magnet" təlim mərkəzində İngilis dili müəllimi olaraq çalışır.*

# Azərbaycan Respublikasının xarici siyasəti və ölkənin Avropa məkanına inteqrasiyası

Dövlət müstəqilliyi əldə etdikdən sonra Azərbaycanın xarici ölkələrlə iqtisadi, siyasi və mədəni əlaqələr qurması və bu əməkdaşlığın miqyasını genişləndirilməsi az qala iki yüz illik müstəmləkə əsarətindən qurtulan dövlət üçün taleyüklü məsələlərdən biri idi. İlk addım qismində qonşu ölkələrlə ikitərəfli diplomatik əlaqələrin yaradılması uğurlu nəticələrini verdi. Azərbaycan Respublikasını müstəqil dövlət kimi tanıyan ilk ölkə qardaş Türkiyə oldu və bu proses getdikcə daha geniş vüsət aldı. Lakin, 1992-ci ildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin şiddətlənməsi, Azərbaycan ərazilərinin erməni silahlı birləşmələri tərəfindən işğalı ölkənin xarici siyasəttində iki əsas fəaliyyət istiqamətini formalaşdırdı:

- münaqişənin beynəlxalq hüquq və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli;
- Azərbaycan dövlət müstəqilliyininin dünya birliyinə daxil olan dövlətlər tərəfindən tanınması və dəstəklənməsi.

Təbii ki, Sovet İttifaqının süqutundan sonra Qərb ölkələri ilə diplomatik əlaqələrin yaradılması Avropa iqtisadi-siyasi məkanı ilə qarşılıqlı və bərabər səviyyəli dialoqun qurulması da Azərbaycan xarici siyasətinin əsas vəzifələrindən biri idi. Ölkənin dünya birliyinə daxil olan dövlətlər tərəfindən tanınması üçün 1993-cü ildən etibarən bir sıra mühüm sazişlər imzalanmış, beynəlxalq təşkilatların tam hüquqlu üzvü olmaq üçün müvafiq səylər edilmişdir. «Lakin, təəssüf ki, bu addımlar xarici siyasətin təşkilindən çox özünütəsdiq cəhdi kimi qiymətləndirilir. Beynəlxalq miqyasda tanınma ölkənin legitimliyi və ona etimadının yaranması,

eləcə də burada demokratik dövlət quruculuğuna dair mövqeyin formalaşması üçün olduqca mühüm idi *(Chatham House, Russia and Eurasia Meeting Summary. Azerbaijan: External Relations, İnternal Realities. 11 January 2013)*.

Azərbaycanın Qərb dövlətləri əməkdaşlığına 1992-ci ilin mart ayının 2-də - onun BMT-nin üzvlüyünə qəbul olunması ilə start verilmişdir. Həmin ilin may ayının 6-da isə BMT-nin nəznində Azərbaycanın daimi nümayəndəliyi fəaliyyətə başlamışdır. Birləşmiş Millətlər Təşkilatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul etsə də, vəziyyət əsas etibarı ilə dəyişilməz qalmışdır. Bütün bunlara baxmayaraq, Azərbaycan Respublikası BMT-nin bir sıra ixtisaslaşdırılmış qurum və təşkiltları o cümlədən, BMT-nin İnkişaf Proqramı, Qaçqınlar üzrə Ali Komissarlığı, Uşaq Fondu *(UNİCEF*), YUNESKO, Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik və s. ilə əməkdaşlığı uğurla davam etdirməkdədir.

Azərbaycan NATO-ya üzv olmasa da, 1994-cü ildən onun “Sülh naminə Tərəfdaşlıq” Proqramına qoşulmuş və bununla da beynəlxalq stabilliyin və təhlükəsizliyin qorunması prosesinə öz tövhəsini vermişdir. Bundan başqa, o, 1992-ci ildən ATƏT-in üzvüdür və bu qurumun Helsinki Yekun Aktına, Paris Xartiyasına, Avropa Təhlükəsizlik Xartiyasına qoşulmuş, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkədə demokratikləşdirmə prosesinin sürətlənməsi istiqamətində əməkdaşlığı genişləndirir.

2001-ci ildən Azərbaycan Respublikası Avropa Şurasının üzvüdür. Şura ölkədə milli qanunvericiliyin demokratikləşdirilməsi sahəsində əməkdaşlıq edir və qəbul edilən qanun layihələri AŞ ekspertlərinin bilavasitə iştirakı ilə hazırlanır. Azərbaycan Şuranın əsas sənədi sayılan İnsan Hüquqları və Əsas Azadlıqlarının Qorunması haqqında Konvensiyaya qoşulmuş və və onu ratifikasiya etmişdir. Avropa Şurası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair ədalətli mövqeyin formalaşmasında da fəaliyyət göstərir. Qeyd edək ki, Azərbaycan bu şuraya üzv qəbul olunduqdan və özünü Avropanın tamhüquqlu dövləti adlandırsa da, seçkilərin şəffaf keçirilməsi, siyasi məhbuslar və digər məsələlərdə müəyyən fikir ayrılıqları yaratmışdır. Bu isə Azərbaycan xarici siyasətində imita-

tiv olması və onun öz üzərinə götürdüyü öhdəliklərdən boyun qaçırması kimi təəsürat oyadırdı *(Chatham House, Russia and Eurasia Meeting Summary. Azerbaijan: External Relations, İnternal Realities. 11 January 2013).*

Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığına gəldikdə isə, bu əlaqələrin hüquqi əsasını 1996-cı ilin aprel ayının 22-də Lüksemburq şəhərində imzalanmış və 1999-cu ilin iyun ayının 22-də qüvvəyə minmiş Avropa Birliyi və onun üzvü olan dövlətlər və Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi təşkil edir. Həmin sazişdən sonra Azərbaycan Aİ bir sıra layihə və proqramlarında məsələn, "Avropa Qonşuluq Siyasəti" və "Şərq tərəfdaşlığı" proqramlarında iştirak etmişdir.

2004-cü ildə Avropa İttifaqı dövlət və hökumət başçıları Şurasının toplantısında Avropa Komissiyasının Cənubi Qafqaz ölkələrinin AQS-yə cəlb olunmasına dair tövsiyələri qəbul edilmişdir. Azərbaycan Respublikası AQS-yə daxil edildikdən sonra - 2006-cı ilinin noyabr ayının 16-da ölkənin xarici işlər nazirliyi tərəfindən Beşillik Fəaliyyət Planı imzalanmışdır. Fəaliyyət Planında 10 prioritet istiqamət müəyyən edilmişdir:

1. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi.
2. Ölkədə demokratiyanın inkişafı.
3. Qanunun aliliyinin, insan hüquqlarının və azadlıqlarının müdafiəsinin gücləndirilməsi.
4. Sahibkarlıq və investisiya mühitinin yaxşılaşdırılması.
5. Gömrük xidməti işinin yaxşılaşdırılması.
6. Balanslaşdırılmış və davamlı iqtisadi inkişafa dəstək.
7. İqtisadi qanunvericiliyin və inzibati praktikanın yaxınlaşdırılması.
8. Aİ-Azərbaycan arasında enerji və nəqliyyat əməkdaşlığının gücləndirilməsi.
9. Məhkəmə, azadlıq və təhlükəsizlik sahələrində, o cümlədən sərhədlərin mühafizəsində əməkdaşlığın genişləndirilməsi.
10. Regional əməkdaşlığın gücləndirilməsi.

2009-cu il may ayının 7-də Praqada keçirilmiş "Şərq Tərəfdaşlığı Sammiti" çərçivəsində əsası qoyulan "Şərq tərəfdaşlığı" siyasi kursu Aİ və onun Şərqi Avropada altı qonşusu - Azərbaycan, Belarus, Gürcüstan, Moldova, Ermənistan və Ukrayna ilə tərəfdaşlığın dərinləşməsinə və Şərqə doğru nüfuzunun artmasına yönələn siyasətdir. Şərq Tərəfdaşlığı Proqramının Parlament Assambleyası "EURONEST" adlanır. Bu təsisat demokratiya, insan haqlarının və qanunların qorunması kimi ümümi dəyərləri bölüşməklə yanaşı, Şərq Siyasəti çərçivəsində dörd əsas platforması da vardır:

- *demokratiya, yaxşı idarəçilik və stabillik;*
- *iqtisadi inteqrasiya və Aİ siyasəti ilə uzlaşma;*
- *enerji təhlükəsizliyi;*
- *İnsanlar arasında əlaqə.*

Platformaların adından göründüyü kimi, söhbət ölkədə demokratik idarəçiliyin qurulması *(demokratik qanunların tətbiq olunması və şəffaflıq),* sərhəd təhlükəsizliyi və idarəçiliyi məsələləri, o cümlədən sərhədlərin qorunması, terrorizmə və narkotik, silah və insan alverinə qarşı mübarizə, daxili bazarın Avropa bazarı ilə uzlaşdırılması sahəsində islahatlar *(Azərbaycan İqtisadiyyatının gücləndirilməsi, Avropa standartlarına uyğunlaşması və qeyri-neft sektorunun inkişafı,nəqliyyat sektorunun inkişafı),* enerji təhlükəsizliyi məsələləri *(enerji təhlükəsizliyinin təminatı, yeni boru kəmərlərinin çəkilişi, qiymətlərin tənzimlənməsi və enerjinin Avropaya inteqrasiyası),*Vətəndaş cəmiyyətinin formalaşması istiqamətində aparılacaq islahatlar *(təhsil sahəsində mübadilə proqramları və beyin axını)* və s. nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, Aİ ilə əməkdaşlıq və tərəfdaşlığa dair proqramlar üzərində fəaliyyət hələ 1991-ci ildə AŞ-nın TACİS və TRASEKA proqramları çərçivəsində başlamışdır. TACİS proqramı Avropa Birliyi ilə qonşuluq və əməkdaşlıq münasibətlərində olan Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində bazar iqtisadiyyatının genişləndirilməsi, demokratiyanın və qanunvericiliyin gücləndirilməsini nəzərdə tuturdu. TACİS *(Technical Assistance to the Commonwealth of Independent States)* Proqramı çərçivəsində bir sıra uğurlu

layihələr həyata keçirilmişdir. Onlardan ən uğurlusu İBM *(İntegrated Board Management- Vahid Sərhəd İdarəçiliyi)* layihəsidir. Bu layihə İranla sərhəd zonasında Vahid Sərhəd İdarəçiliyini nəzərdə tutan pilot layihə idi. Həmin layihə çərçivəsində sərhəd xidmətində bir sıra islahatlar aparılmış, gömrük işçilərini maarifləndirilməsi üçün xüsusi məşğələlər təşkil edilmişdi. Layihənin uğurlu nəticəsi olaraq, Azərbaycanda Dövlət Sərhəd Xidməti və Gömrük işçilərinin treninq məktəbi fəaliyyətə başlamışdır. TRASEKA Proqramını isə "Cənub Dəhlizi"və ya "Müasir İpək Yolu" kimi də səciyyələndirmək olar.

Bu məsələlərin hər biri kifayət qədər cəlbedici görünsə də, sual doğuran amilləri də vardır. Məsələn, Avropa İttifaqının Şərq tərəfdaşlığı çərçivəsində etdiyi yardımların və ayırdığı maliyyənin miqdarında olan şəffaflıq, vətəndaş cəmiyyətinə dair məsələlərdə yalnız QHT-lərin iştirakı, regional münaqişələrin həllində qeyri-səmimi yanaşmalar və s. Belə ki, 2013-cü ilin mart ayının 28-də Avropa Komissiyası və Avropa Xarici Siyasət Xidmətinin iştirakı ilə keçirilən dinləmədə Aİ Şərq Tərəfdaşlığı layihəsinə ayırdığı büdcə və son dörd il ərzində fəaliyəti tənqid olunmuşdur. Belə ki, Polşada Şərq Elmləri Mərkəzinin direktoru Olaf Ositsa ötən müddət ərzində layihəyə ayrılan büdcənin miqdarının - 2,8 milyard avronun şişirdilməsinə və büdcə əməliyyatlarının şəffaf olmamasına narazılığını bildirmişdir. Onun qaldırdığı digər məsələ də vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi ilə bağlı idi. O.Ositsa Vətəndaş cəmiyyəti Forumunda ancaq QHT-lərin təmsil olunmasının sıravi vətəndaşların proseslərdən kənarda qalması ilə nəticələndiyini vurğulamışdır.

Təbii ki, Azərbaycan Respublikasının Aİ Şərq Tərəfdaşlığı siyasəti ilə əməkdaşlığında əsas məsələ enerji təhlükəsizliyidir. Avropa alternativ enerji mənbələri axtarışında maraqlıdır. İkinci məsələ isə Azərbaycanın tranzit ölkə olmasıdır. Yəni Azərbaycanının Avropa ilə əməkdaşlığı onun Xəzər dənizinə və burdan Mərkəzi Asiyaya çıxışı deməkdir. Ən nəhayət üçüncü məsələ Rusiya amilidir. Lakin, Azərbaycanın da yararlanacağı bir sıra məsələlər vardır ki, Avropaya inteqrasiya çərçivəsində onlara diqqət yetirmək lazımdır: Təhsil mübadiləsi

proqramlarının və insanlar arasında dialoqun genişləndirilməsi, Qeyri-neft sektorunun inkişafı və kadr hazırlığı, azad bazar iqtisadiyyatının yaradılması, ölkənin təhlükəsizliyinin təmin edilməsi üçün orduda islahatların aparılması. Zənnimcə, bu sahələrdə islahatlar aparılarsa, Azərbaycan həqiqətən də regionun inkişaf etmiş dövlətinə çevrilə bilər. Lakin, onu da unutmaq lazım deyil ki, biz hələ müstəqilliyimizin ilk iyirmi ilini yaşayırıq.



## Zaur Mirzə

*Zaur Mirzəyev Azərbaycan Dövlət Neft Akademiyasının "Elektronika, Telekommunikasiya və Radiotexnika mühəndisliyi" fakültəsinin tələbəsidir. "1 kitab = 1 gələcək" və "2 days 2 success" layihələrinin müəllifi, "Activism Netweek" layihəsinin iştirakçısı və "D18 Hərəkatı"nın həmtəsisçisidir.*

# Şərq Tərəfdaşlığı: İkitərəfli və çoxtərəfli genişlənmə

Şərq tərəfdaşlığının əsası 2009-cu ildə Praqada qoyulmuşdur. Bu, Avropa İttifaqı və altı tərəfdaş ölkə *(Azərbaycan, Belarusiya,Ermənistan,Gürcüstan, Moldova və Ukrayna)* ilə münasibətlərin gücləndirilməsi üçün yeni təşəbbüsdür. Bu təşəbbüs demokratiya, qanunun aliliyi, insan hüquqlarına və əsas azadlıqlara hörmət,bazar iqtisadiyyatı və davamlı inkişaf kimi ümumi dəyərlərə əsaslarnır. Bu proqramın qarşısında duran əsas məqsədlərindən biri keçmiş postsovet dövlətlərində hələ də mövcud olan avtoritar və neototalitar idarə etməni aradan qaldırmaqdır. Avtoritar idarəetmənin sayəsində hazırda məhz bu dövlərdən Avropaya olan böyük miqrant axınının qarşısını almaqdır.

ŞT iki yanaşmadan ibarət olan prosesdır. İkitərəfli genişlənmə xətti ilə Avropa İttifaqı son nəticə kimi onunla Assosiasiya Sazişının imzalanmasına yönəlmiş yeni müqaviləyə əsaslanan münasibətlərin qurulmasını təklif edir. Şərq Tərəfdaşlığı Avropa İttifaqının iqtisadiyyatına inteqrasiyanı daha da sürətləndirilməsinə, dərin və hərtərəfli azad ticarət məkanının qurulması ilə nəticələnməsinə hesablanıb. Digər məqsəd Avropa İttifaqının Şərq Tərəfdaşları üçün viza rejiminin tam liberallaşması ilə Avropa İttifaqı ölkələrinə gediş-gəlişin asanlaşdırılmasıdır. Bunun nəticəsi kimi hər iki tərəfdə mədəniyyətlərarası mübadilənin yaradılması, keçmiş dəmir pərdə arxasındakı ölkələrinin vətəndaşlarına demokratiya və insan haqları kimi ali anlayışların aşılamaqdır. Enerji bazarlarının daha yaxından qarşılıqlı əlaqələndirilməsi və inteqrasiyası ilə enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın qurulması da bu yanaşmaya daxildir. Xüsusən də, Azərbaycan kimi

zəngin qaz və neft yataqları olan keçmiş post-sovet ölkələrinin Avropanın enerji təhlükəsizliyində rolunu artırmaq və Avropanın Rusiyadan olan enerji asılılığını azaltmaq məqsədini güdür. Əlavə olaraq, Avropa İttifaqının birlik siyasətinə əsaslanaraq, pilot təşəbbüs qismində regional inkişaf təşviq olunacaqdır. Nəticədə, Şərq Tərəfdaşlığının inkişafını təmin etmək məqsədilə diqqətin ölkənin əsas qurumlarına yönəldiləcək, yeni və hərtərəfli institusional potensial quruculuğu proqramı tərtib olunacaqdır.

Çoxtərəfli genişlənmə xətti ilə ŞT Avropa İttifaqı qanunvericilik və standartlarını təqdim etmək, islahatlar sahəsində təcrübə və ən uğurlu praktika mübadiləsi aparmaq məqsədilə yeni forum təqdim edir. Bütün tərəfdaşlar arasında əlverişli mübadilə təmin etmək üçün demokratiya, yaxşı idarəçilik, sabitlik, iqtisadi inteqrasiya və Avropa İttifaqı siyasətlərinə uyğunlaşma, enerji təhlükəsizliyi və cəmiyyətlər arasında əlaqə məsələlərini əhatə edən 4 tematik platforma təsis edilmişdir. Çoxtərəfli əməkdaşlıq xətti altı aparıcı təşəbbüslə dəstəklənir *(inteqrə edilmiş sərhəd idarəçiliyi proqramı; kiçik və orta müəssisələr müxanizmi; enerji təchizatının çoxşaxəli inkişafı; regional elektrik enerjisi bazarları; enerjidən səmərəliyinin artması və bərpa olunan enerji mənbələrindən istifadənin artması; təbii və süni fəlakətlərin qarşısının alınması və onlara hazırlıq; ətraf mühitin yaxşı idarə olunmasının təbliği).*

Avropa İttifaqı Aərbaycanla qurduğu yaxın əlaqələri daha da genişləndirərək, tədrici iqtisadi inteqrasiya və siyasi əməkdaşlığın dərinləşməsinə doğru addımlayır. 1999-cu ildə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi qüvvəyə minmiş, 2003-cü ildə Avropa Qonşuluq Siyasəti ilə Avropa İttifaqı Azərbaycanla qurduğu əlaqələrində yeni səhifə açmışdır. 2009-cu ilin may ayında Azərbaycanın Şərq Tərəfdaşlığındakı iştirakı ilə bu istiqamətdə daha bir addım atılmışdır. Şərq Tərəfdaşlığı proqramının istənilən səviyyədə effekti olmamasının əsas səbəblərindən biri və bəlkə də birincisi Azərbaycanda daxil olmaqla sabiq SSSR dövlətlərinin bu məsələdə Rusiya ilə balanslaşdırılmış siyasət aparmasıdır. Şərq Tərəfdaşlığı proqramının reallaşması və Azərbaycanın bu proqramda mühüm yer tutması üçün xarici siyasət konsepsiyası müəyyənləşdiilrməli və Avro-Atlantik məkana inteq-

rasiya edilməlidir. Şərq Tərəfdaşlığı ölkələrinin parlament birliyinin yaradılması Azərbaycanın gələcək Avropa Birliyinə üzv olması üçün bir qapıdır. Azərbaycan Avropa Birliyinə ŞT çərçivəsində üzv olması üçün üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir. Bu öhdəliklər əsasən siyası və iqtisadi öhdəliklərdir. Təəssüf ki, Azərbaycan üzərinə götürdüyü öhdəliklər yönümündə həlledici addımlar atmır.

Şərq Tərəfdaşlığına üzvlük Azərbaycan cəmiyyətinə ümidlər verir. Gerçəkdə isə islahatlar barədə vədlər var, lakin real əməllər yoxdur. Çünki, ölkənin əsas iqtisadiyyatı neft-qaz satışıdır və bu məsələdə heç bir imtiyaz tələb olunmur. Bütün dünya özəlliklə Avropa neftə, qaza ehtiyac duyur və münasibətlərdən asılı olmayaraq onu hamı alır. Prinsip etibarı ilə, neft-qaz amilini çıxsaq, bütövlükdə Azərbaycan xalqının Avropa ilə xüsusi münasibətlərinin qurulması vacibdir. Çünki biz Avropa demokratiya mədəniyyətini, iqtisadı fəaliyyətini, elmi texnolgiya, kənd təsərrüfatı və qeyri neft sektorunu öyrənə bilərik. ŞT proqramında göstərilən viza rejimi sadələşdirilərsə, vətəndaşlarımız Avropaya daha rahat və sıx şəkildə gedib-gələ bilər. Avropa Birliyi ilə Azərbaycan arasında qısa müddətlik vizanın verilməsi qaydası dəyərləndirilərsə, daha vacib islahatların - demokratiyanın inkişafı, insan haqlarının təmin olunması, azad bazar iqtisadiyyatı, söz və mətbuat azadlığı daha da tərəqqi edər. Bu addımlar Azərbaycanın Avropa Birliyinə qoşulmasını daha da sürətləndirəcəkdir.

**Aygül Cəfərova**



*Aygül Cəfərova Azərbaycan Xarici Dillər Universitetinin " İngilis dili" fakültəsinin məzunudur. Almaniyanın Marburg Universitetinin "Linqvistika və veb texnologiyaları" ixtisası üzrə magist dərəcəsi almışdır. Hazırda, Azərbaycan Avropa Hərəkatının Baş Katibi vəzifəsində çalışır.*

## Azərbaycanın Avropaya inteqrasiya prosesində Rusiya amili

Etiraf olunmalıdır ki, istər Rusiya, istərsə də Avropa İttifaqı post-sovet məkanına dair siyasətlərində ciddi səhvlərə yol veribmişlər. Çünki onların bu ölkələrə dair aydın strategiyası yox idi. Bundan başqa, sovet rejiminin süqutundan sonra geniş imkanlar əldə edən Rusiyanın eyforiyası tezliklə uğursuzluqla əvəz olundu. Həm də bu uğursuzluq uzaqlarda deyil, onun yaxın ətrafina aid idi. MDB üzv ölkələrin Rusiyanın dominantlığı altında toplanması rəsmi Moskvanı həmin dövlətlərlə qeyri-adekvat münasibətlər qurmağa sövq etdi. Rusiya üçün bu tendensiya hələ də qalmaqdadır və o, bu ölkələrə, o cümlədən Azərbaycana özünün «arxa bağçası» kimi yanaşır. Bu dominantlıq təkcə sözdə deyil, onların yerinə siyasi qərar vermək, dövlət strategiyalarını müəyyən etmək istəyində özünü göstərir. Rusiyanın mövqeyi aydındır, özünü super güc görən ölkə «arxa baxçasını» heç kimə vermək və təsir gücünü zəiflətmək fikrində deyil. Avropa İttifaqına gəldikdə isə, Brüssel Sovet İttifaqının nüvə irsi problemini aradan qaldırdıqdan sonra post-sovet ölkələrinin demokratikləşməsi prosesini ilk növbədə post-sovet məkanında növbəti sovet rejiminin bu və ya digər formada bir daha qurulmamasına başlıca təminat kimi görürdü. Lakin, MDB-nin təşkili Avropada Sovet İttifaqının bərpası qorxusunu yaratdı. Müstəqillik əldə etmiş ölkələrin qarşısında duran Rusiya-Qərb dilemması hələ də aktualdır və bölgədə sağlam tərəfdaşlığın qurulmasına çətinliklər yaradır. Bununla belə, bir sual onları ciddi seçim qarşısında qoyur: Rusiya, yoxsa Avropa? Məsələn, Azərbaycanın Avrointeqrasiya prosesində Rusiya amilinin ciddi maneə kimi qalması faktı danılmazdır. Həmin maneə siyasi və iqtisadi sahələrdə özünü qabarıq göstərir.

Bugün MDB ölkələri Avropanın qonşuluq siyasətini özündə əks etdirən layihələrə, eləcə də Avropa İttifaqının regional təşəbbüsü olan "Şərq Tərəfdaşlığığı" Proqramına cəlb olunmuşlar. Bu proqram qonşuluq siyasəti çərçivəsində post-sovet ölkələri ilə münasibətlərin yaxşılaşdırlmasına yönəldilmiş təşəbbüsüdür. «Şərq tərəfdaşlığı» Avropa İttifaqının altı qonşu ölkəsini - Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Belorus və Ukraynanı əhatə edir. Avropa İttifaqı bu maddi dəstək, müxtəlif sahələrdə əməkdaşlıq, təhlükəsizlik, kənd təsərrüfatı, nəqliyyat, ətraf mühitin qorunması, viza rejiminin tədricən sadələşdirilməsi kimi üstünlüklər vəd etmişdir. 2010-2013-cü illər ərzində Şərq Tərəfdaslığı çərcivəsində ikitərəfli proqramlara Avropa İttifaqı 1,9 miliard avro vəsait ayırmışdır. Ukrayna, Moldova, Ermənistan və Gürcüstan 2013-cü ilin payızında Vilnüs də keçiriləcək Şərq Tərədaşlığı sammitində assosiasiya şazisi imzalamağı planlaşdırırlar. Rusiya isə Avropanın qonşuluq siyasətindən kənarında qalmış və onun Avropa İttifaqı ilə son zamanlarda yeni bir anlaşması yoxdur. Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri 1991-ci ildə TACİS *(Müstəqil Dövlətlər Birliyinə Texniki Yardım)* Proqramına qoşulması ilə başlandı. Bu proqramın məqsədi MDB ölkələrində iqtisadi islahatların sürətləndirilməsinə yardım idi. 1996-cı ildə Azərbaycan və Avropa İttifaqı arasında Əməkdaşlıq sazişi imzalanmış, 2004-cü ildə Qonşuluq Siyasəti Proqramının fəaliyyət planı qəbul olunmuşdur. Lakin, Azərbaycan və Belarus Avropa İttifaqı vətəndaşlarından viza tələb edərək, süni maneler yaradır və bununla da Rusiyaya meylə şərait yaradır. Avropanın Azərbaycanla olan münasibətlərini gücləndirmək istəyinin səbəbi isə Rusiyanın istənilən təziqini neytrallaşdırmaq, Azərbaycana potensial investisiya qoyuluşunu artırmaqdan ibarətdir.

### *Azərbaycan-Avropa münasibətləri*

**İqtisadi səbəblər**. Avropanın təbii qaza olan tələbatını ödəyən ən böyük ölkə Rusiyadır. Avropa ölkələrinə siyasi təzyiqlər göstərmək məqsədi ilə Rusiya zaman-zaman bu üstünlüyündən istifadə etməkdədir. Siyasi təzyiqin açıq-aşkar nümayişinə bir nümunə 2008-ci ildə Rusiyanın Şərqi Avropaya qaz təchizatını dayandırmasıdır. Təbii olaraq, bu asılılığı aradan qaldırmaq məqsədilə Avropa al-

ternativ mənbələr axtarışına çıxmışdır. Azərbaycanın real təbii qaz imkanlarını bu prizmadan dəyərləndirsək müəyyən edərik ki, ölkə Avropanın 540 milyard kub metr həcmində qaz tələbatının cəmi 5 faizini ödəmək imkanındadır. Ayrılıqda isə Azərbaycan qazının Şərqi Avropa üçün nəzərəçarpacaq əhəmiyyəti var. Çünki, Şərqi Avropanın 3 milyard kub metrlik qaz ehtiyacını Azərbaycan rahatlıqla təmin edə bilər. Bütün bunları nəzərə alaraq belə qənaətə gəlmək olar ki, Azərbaycanın Avropa İttifaqi ilə olan iqtisadi əlaqələrinin genişlənməsi heç də Rusiyanın maraqlarına cavab vermir.

**Siyasi səbəblər.** Rusiya regionun, eyni zamanda Azərbaycanın gələcək müqəddəratını müəyyən etmək arzusundadır. Buna görə də Azərbaycanın Avropa ilə yaxınlaşması Rusiyanın imperiya maraqları ilə ziddiyyət təşkil edir. Paralel olaraq, Avropanın təkid etdiyi insan hüquqları, şəffaflıq kimi demokratik dəyərlərin Azərbaycanda təmin olunması həmin dəyərlərdən yayınan Rusiyanı qıcıqlandırır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini tapmaması, Rusiyanın münaqişə iştiakçısı olan tərəflərə silah satışı rəsmi Moskvanın xeyrinədir. Bu səbəbdən münaqişənin həllinin yalnız sülh yolu ilə mümkünlüyünü vurğulayan Avropa regiona dair siyasətində Rusiyadan fərqli mövqe nümayiş etdirir.

### *Azərbaycan hökumətinin mövqeyi*

Azərbaycan höküməti Rusiya və Avropadan aslı olmayan müstəqil xarici siyasət yürütdüyünü bəyan edir. Gürcüstan və Ermənistan isə öz mövqelərini açıq-aşkar nümayiş etdirirlər.. İmzaladığı sazişlər, qoşulduğu konvensiyalarla Avro-Atlantik məkana daxil olmağı hədəfləyən Azərbaycan hökumətinin reallıqda Rusiyanın yanında olması nəzərə çarpır. Çünki hər iki ölkənin iqtisadiyyatı təbii ehtiyatlara əsaslanır və hər iki ölkədə insan hüquqlarının pozulmasına Avropa investorlarının, siyasətçilərinin göz yumacağına əmindirlər. Azərbaycanın siyasi mövqeyini müəyyən edən digər bir amil isə Rusiyanın 2008-ci ildə Gürcüstana hərbi müdaxiləsidir. Rusiyanın açıq-aşkar Avropa yolunu seçən Gürcüstana qarşı olan hərbi yürüşü regiondakı digər ölkələrə də hədə-qorxu cəhdi kimi qiymətləndirilə bilər.

DHATS üzvü olmaq üçün şərtlərdən biri də tərəfdaş ölkələr arasında iqtisadi əlaqələr artımı üçün ikitərəfli sazişlərin imzalanmasıdır. AB belə hesab edir ki, bu sazişlər sayəsində ölkələrin iqtisadi inteqrasiya imkanları artacaq və asanlıqla DHATS-a qoşulmasına şərait yaranacaqdır. Lakin, Azərbaycan öz maraqlarını qoruyur və Ermənistanın işğal olunmuş ərazilərdən çıxmadığı təqdirdə bu ölkə ilə hər hansı əlaqənin qurulmasını istisna edir. Buna baxmayaraq, Azərbaycanın öz milli maraqlarının qorunması şərti ilə ÜTT-ə qoşulacağı gözlənilir. Eyni zamanda, Azərbaycan Kredit İttifaqına (Kİ) qoşulmasında maraqlı olduğunu bəyan etmişdir. Bunun isə ölkənin iqtisadiyyatına müsbət təsir göstərəcəyi proqnozlaşdırılır. Belə ki, daxili bazarda rəqabətin artması, xarici investorların ölkəyə vəsait qoyuluşunun intensivləşməsi, işsizliyin azalması və tədricən aradan qaldırılması ÜDM-in həcminin artmasına gətirib çıxardacaqdır.

Ölkəmiz Yer üzündə neft ehtiyatlarının məhdudluğunu nəzərə alaraq, qeyri-neft sektoruna daha çox önəm verir. Hazırda Azərbaycanın iqtisadi siyasətində əsas istiqamətlərdən bir də ÜDM-də bu sektorun payının artırılmasıdır. Ölkədəki investisiya layihələrin əksəriyyəti qeyri-neft sektoruna yönəlmişdir və xarici investorlar bu sahə üzrə layihələrdə maraqlıdırlar. Qeyri-neft sektor yönümlü layihələrin əsasını turizm, loqistika, nəqliyyat, xidmət sahələri və s. nəzərdə tutulur. Avropanın bir neçə iri şirkətlərinin Azərbaycanda fəaliyyəti buna bariz nümunədir. ÜTT-ə üzvlükdən sonra yerli və xarici investorların ölkədə qeyri-neft sektor yönümlü layihələri ölkənin neftdən asılılıq riskini azaldacaq və istənilən böhranda qeyri-neft sektoru neft sektorunu kompensasiya etməklə ölkə iqtisadiyyatında balanslaşdırıcı funksiya yerinə yetirəcəkdir.

Son olaraq deyə bilərik ki, bu proqram çərçivəsində Avropanın üzərinə düşən vəzifələr də vardır. Onlardan biri Azərbaycanı ŞT Proqramı çərçivəsində fəaliyyətini stimullaşdırmaqdır. Şərq Tərəfdaşlığının çoxtərəfli fəaliyyəti üçün Aİ Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində böyük səy göstərməli və regionun sabitliyinə yaxından maraqlanmalı, Azərbaycanın ÜTT-yə üzvlüyü və islahatların təşviqi üçün bir vasitə olmalıdır.



**İlhamiyyə Babazadə**

*İlhamiyyə Babazadə Azərbaycan Dövlət İqtisad Universitetinin "Uçot-iqtisad" fakültəsinin məzunu və həmin universitetin "Mühasibat uçotu və audit" fakültəsinin magistratura tələbəsidir. 2011-ci ilin Avqust ayında Almaniyanın "Heidelberg" Universitettində dil kursu keçmişdir. "Siyasi liderlik məktəbi", "Aktiv vətəndaşlıq məktəbi", "Azadlıq-din-ənənə" mövzularında keçirilən təlimlərin iştirakçısı olmuşdur.*

## Şərq Tərəfdaşlığı Proqramına bir nəzər

Son illərdə Azərbaycanda demokratik mühiti genişləndirmək və bazar iqtisadiyyatını inkişaf etdirmək məqsədilə davamlı islahatlar aparılır. Bu isə ölkəni Avropa Birliyinə daha da yaxınlaşdırır. Avropa Birliyi və Azərbaycan Respublikası arasındakı əməkdaşlığın əsas məqsədi iqtisadi inteqrasiya və sıx siyasi əlaqələrin gücləndirilməsi yönündə münasibətlərin genişləndirilməsidir. Lakin, Avropa standartlarının və dəyərlərinin o qədər də düzgün qiymətləndirilməməsi nəticəsində Avropaya inteqrasiya müəyyən etirazlara məruz qalır.

Avropa Birliyi - Azərbaycan münasibətləri və AB qurumları haqqında ictimai informasiyanın məhdudluğu ölkənin inkişafında vətəndaş cəmiyyətinin davamlı fəaliyyətinə mənfi təsir göstərir. «Avropa» anlayışının müəyyənləşməməsi və müstəqil mütəxəssislərin fəal iştirakının təmin olunmaması bu prosesdə vətəndaş cəmiyyətinin də mövqeyinin əks olunmasını çətinləşdirir. Avropa Birliyi başqa ölkələrlə daim xüsusi münasibətlər qurmağa çalışır, üzv qəbul edə bilmədiyi dövlətlərlə münasibətləri yardımçı vasitələrlə tənzimləməyə üstünlük verir. Məsələn, birlik Avropa Qonşuluq Siyasəti Proqramı çərçivəsində quruma daxil olmayan xeyli ölkəyə maddi və texniki yardım göstərir. Birliyin məqsədi əməkdaşlığı genişləndirməklə digər ölkələri də öz standatlarına yaxınlaşdırmaqdır. Avropa Birliyi Qonşuluq Siyasəti Proqramı çərçivəsində ölkələrlə fərdi fəaliyyət planları imzalamışdır. Bu plan əməkdaşlığın indikatoru sayılır. Hər bir ölkə fəaliyyət planında öhdəliyini seçməkdə sərbəstdir. Üzərinə daha çox öhdəlik götürüb və onu vaxtında yerinə yetirməsi həmin dövlətləri Avropa Birliyi ilə daha çox yaxınlaşdırır.

**Şərq Tərəfdaşlığı (ŞT) -** Avropa Birliyinin xarici münasibətlər sisteminə tətbiq edilmiş, Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Belorus və Ukraynaya ünvanlanmış ilk birgə təşəbbüsdür. Şərq Tərəfdaşlığı Şərqi Avropa və Cənubi Qafqaz ölkələrinin Avropa Birliyinə yaxınlaşması və inteqrasiyası məqsədini daşıyır. 2009-cu ildə Praqada keçirilmiş ilk Zirvə Toplantısında Şərq Tərəfdaşlığı təşəbbüsünə rəsmi start verilmiş və Birgə Bəyannamə qəbul olunmuşdur. Beləliklə, bu təşəbbüsün Avropa Birliyinin siyasətinin tərkib hissəsi qismində tətbiqinə yönəldilmiş səylər müvəffəqiyyətlə nəticələnmişdir. ŞT-nın tövsiyyələrinin icrası tərəfdaş ölkələrinin AB ilə real yaxınlaşmasına səbəb olacaq, inteqrasiyanı asanlaşdıracaqdır.

ŞT-ın fəaliyyəti birgə iştirak əsasında qurulur. AB-nin dəyərləri, standart və normalarına söykənən sahələrdə - insan hüquqları, bazar iqtisadiyyatı, tarazlaşdırılmış inkişaf, səmərəli idarəçilik, enerji təhlükəsizliyi və s. əməkdaşlıq inkişaf edir. Şərq Tərəfdaşlığı cəmiyyətlərarası əlaqələrin inkişafı və möhkəmlənməsinə, mədəniyyət və ya elm sahəsində əməkdaşlığın dərinləşməsinə yardım edir.

**Şərq Tərəfdaşlığını əsas məqsədləri.** Siyasi birliyin yaranması, tərəfdaş ölkələr və AB arasında azad ticarət məkanının yaradılması, viza rejiminin tədricən sadələşdirilməsi və tədricən ləğvi, tərəfdaş ölkələrlə münasibətin dörd platforma *(demokratiya, səmərəli idarəçilik və sabitlik; AB-nin siyasətinə yaxınlaşma və iqtisadi inteqrasiya; enerji təhlükəsizliyi; insanlararası təmaslar)* çərçivəsində çoxtərəfli əməkdaşlıq strukturunun yaradılması. Bu tədbirlər çərçivəsində 50 milyon avro büdcəyə malik **inteqrasiya olunmuş sərhəd idarəçiliyi** *(Integrated Border Management)* layihəsi həyata keçirilməyə başlanmışdır. Kiçik və iri sahibkarlığa dəstək *(2010-2013-cü illər üçün 57 milyon avro)* proqramının hazırlığı isə davam edir. Bu proqramın icrasında ilk addım olaraq tərəfdaş ölkələrdə investisiya şəraitinin yaxşılaşdırılmasına, AB və onun Şərq qonşuları arasında işgüzar əlaqələrin qurulmasına yönəldilmiş East-Invest layihəsinin *(7 milyon avro)* startı verilmiş, Təbii və texnogen fəlakətlərinin qarşısının alınmasına dair təşəbbüs *(6 milyon avro)* reallaşdırılmaqdadır. Bundan başqa, ŞT-nın ətraf mühitin qorun-

masına *(1,8 milyon avro)* dair məlumat mübadiləsi və mədəniyyət proqramının icrasını da nəzərdə tutur.

2009-cu ilin payızında Şərqi Avropada Enerji Səmərəsinin Yüksəldilməsi və Ətraf Mühitin Qorunması Təşəbbüsünə start verilmişdir. Avropa İnvestisiya Bankı ŞT-nın Praqa Zirvə Görüşünün öhdəliklərinə söykənərək, Şərqi Avropa regionuna xarici mandat investisiyalarını *(3,7 milyard avro)* tamamlayan sərmayə fondunu *(Eastern Partners Facility, 1,5 milyard avro)* yaratmışdır. Birgə Bəyannamə isə ayrı-ayrı subyektlərin - hökumət strukturları ilə yanaşı, parlamentlərin, beynəlxalq təşkilatların, özünüidarə orqanlarının, maliyyə institutlarının, vətəndaş cəmiyyəti və özəl sektor subyektlərinin Proqramda açıq iştirakına imkan verir. Avropa Şurası Şərq Tərəfdaşlığının korrupsiya ilə mübarizəsinin və məhkəmə sisteminin təkmilləşdirilməsi üzrə proqramlarda iştiraka dair müvafiq tədbirlər görür AB-nin və tərəfdaş ölkələrin qeyri-hökumət təşkilatları ŞT-na böyük maraq göstərirlər. 2009-cu ildə Brüsseldə Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində Vətəndaş Cəmiyyəti Forumunun ilk iclası keçirilmiş, tədbirdə 200-ə yaxın QHT iştirak etmişdir. Avropa Birliyi və ayrı-ayrı tərəfdaş ölkələr arasındakı əlaqələri əhatə edən assosiasiya sazişinin bağlanılması və azad ticarət məkanında müvafiq zonaların təşkilinə dair də iş görülür.



## Məryəmxanım Tağıyeva

*Məryəmxanım Tağıyeva Bakı Dövlət Universitetinin "Tətbiqi Riyaziyyat və Kibernetika" fakültəsinin tələbəsidir. Birləşmiş Millətlər Təşkilatının (BMT) İnkişaf Proqramının (UNDP) Bakı ofisinin təcrübə proqrmanın iştirakçısı olmuşdur. Hal-hazırda Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası (AGAT) İnformasiya şöbəsinin rəhbəri vəzifəsində çalışır.*

# Azərbaycan inteqrasiya yollarında

Azərbaycanın Avropa və Asiyanın kəsişmə nöqtəsində yerləşməsi ölkəmizin dünya ilə geniş əlaqələrinin yaranmasına şərait yaradır. Asiya ölkələri Azərbaycana hər zaman Avropaya açılan pəncərə kimi yanaşıb. Qərb üçün isə Azərbaycan Şərq xəzinəsinin qapısı idi. Təsadüfi deyildir ki, Böyük İpək Yolu da Azərbaycandan keçir. Ölkəmizin Avropaya inteqrasiyası prosesi tarixi mənbəyini hələ 1918-ci ildə – Azərbaycan Demokratik Respublikasının yarandığı dövrdən götürür. Lakin, onun süqutundan, ölkədə sovet hakimiyyətinin qurulmasından sonra bu proses dayandırılmışdır. Vəziyyət yalnız Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etməsi ilə sürətlə dəyişməyə başladı.

1998-ci ildə prezident Heydər Əliyev Milli Məclisə ölüm cəzasının ləğvi barədə təklifini ünvanlamış və parlament bu fikri dəstəkləmişdir. Beləliklə, Azərbaycan Respublikası tarixə həm də ölüm hökmünün ləğv edən ilk ölkələrdən biri kimi daxil oldu. 2001-ci ildə isə Şərqdə ikinci ölkə olaraq, Azərbaycan Avropa Birliyinə üzv olmuş və bununla da insan haqqlarının təminatı kimi digər mühüm konvensiyalara qoşulmuşdur. 2007-ci ildə Azərbaycan Prezident İlham Əliyevin təşəbbüsü ilə Şərq Tərəfdaşlığı Proqramı iştirakçılarından biri olmuş və nəticədə Avropa üçün davamlı partnyora çevrilmişdir. Ölkədə institusional inteqrasiya ilə yanaşı iqtisadi inteqrasiya prosesi də sürətlənmişdir. Buna misal olaraq, Bakı-Tbilisi-Ceyhan neft kəmərini, Azərbaycan qazının Avropaya nəql edilməsi məqsədi ilə inşa edilən TANAP magistralını göstərmək olar. Bütün bunlar Azərbaycanı enerji təhlükəsizliyi baxımından Avropa üçün etibarlı tərəfdaş kimi əhəmiyyətini artırır.

Avropa və Azərbaycan cəmiyyətləri arasında inteqrasiya, əməkdaşlıq prosessinin genişləndirilməsini də xüsusi qeyd etmək lazımdır. Gənclərimiz Avropa İttifaqının, Avropa Şurasının və digər Avropa təşkilatlarının layihələrində fəal iştirak edirlər. Hazırda yüzlərlə Azərbaycan gənci ölkəyə öz biliyi ilə xidmət etmək, Avropa təcrübəsini vətəndə tətbiq etmək məqsədilə dövlət proqramı çərçivəsində xarici ölkələrdə ali təhsil alırlar. Bütün bunlar müasir dünyanın aparıcı beyin mərkəzlərinin, siyasi institutlarının və beynəlxalq təşkilatların yerləşdiyi Avropa ilə Azərbaycanın fəal əməkdaşlığının göstəricisidir.

Şübhəsiz ki, sürətlə inkişaf etməkdə olan Azərbaycanda Avropa informasiya texnologiyalarının da təbliği çox əhəmiyyətlidir. Digər tərəfdən, Azərbaycan öz geosiyasi mövqeyi, intellektual və təbii ehtiyatları baxımından Avropa üçün çox cəlbedicidir. Lakin, inteqrasiya prosesi nə qədər uğurlu olsada, təəssüf ki, bəzi çətinliklər hələ də mövcuddur. Mürəkkəb viza prosedurları, Avropaya miqrasiya meyli və Azərbaycanın bir dövlət kimi hüquqlarının Avropa ölkələri səviyyəsində təmin olunmaması bu çətinliklərə nümunədir. Problemlərin mənbəyi isə regionda sülhün və təhlükəsizliyin yaranmağına ciddi maneə olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Hazırda ölkədə bir milyona yaxın qaçqın və məcburi köçkün vardır. Onların əksəriyyətinin həyat şəraiti arzu olunan səviyyədə deyildir. Belə bir zamanda Azərbaycan dövləti öz ərazi bütövlüyünün bərpa olunmasını və vətəndaşlarının təhlükəsizliyinin təminatını özü üçün prioritet vəzifə sayır. Belə olan halda, Avropanın siyasi dəstəyi ölkəmiz üçün olduqca vacibdir. Əgər regionda sülh bərpa olunmazsa, Azərbaycan inteqrasiya prosesində gözlənilən nəticələr əldə edə bilməyəcəkdir.



## Şəmşir Tərlanov

*Şəmşir Tərlanov Bakı Avrasiya Universitetinin Sinxron Tərcümə fakultəsi məzunudur. Azərbaycan Avropa Hərəkatının Layihələrin İdarə olunması üzrə katibi vəzifəsində çalışır.*

# Avropa Qonşuluq Siyasəti və Azərbaycandakı ictimai – siyasi durum Avropa Qonşuluq Siyasətinin əsas vəzifələri

Tarixində ilk dəfə olaraq 2003-cü ilin dekabrında Avropa Komissiyası Avropa İttifaqının Təhlükəsizlik Strategiyasını qəbul etmişdir və bu sənəddə Aİ-nın əsas məqsədləri öz əksini tapmışdır:

- Avropada təhlükəsizlik zonasının genişləndirilməsi;
- beynəlxalq hüququn möhkəmləndirilməsi;
- terrorizmə, regional münaqişələrə, kütləvi qırğın silahlarının yayılmasına və mütəşəkkil cinayətkarlığa qarşı mübarizə.

Bu strategiyanın əsas məğzini təşkil edən digər məsələ isə Mehriban Qonşuluq siyasəti olmuşdur. Bu siyasət "Böyük Avropa" *(Wider Europe)* konsepsiyasından "Yeni qonşuluq" doktrinasına qədər uzanan təkamül yolunu keçmişdir. Avropa Qonşuluq Siyasəti *(European Neighbourhood Policy)* və ya "Yeni qonşuluq siyasəti" Strategiyası 2004-cü ilin mayında Avropa Komissiyası tərəfindən irəli sürülmüş və həmin ilin iyununda Avropa İttifaqı tərəfindən qəbul olunmuşdur.

AQS qonşu ölkələrə bütün istiqamətlərdə əməkdaşlığa hazırdır. Bu əməkdaşlığın səviyyəsi və səmərəsi isə dövlətlərin buna nə dərəcədə hazır olmasından asılıdır. AQS qonşu ölkələrdə idarəetmənin keyfiyyətini artırmaq üçün yardım tədbirləri və iqtisadi-ticarət əlaqələri təklif edir. Lakin AB-in sənədlərində

göstərildiyi kimi, bu tipli tədbirlərin effektivliyini təmin etmək üçün ilk növbədə ətrafında demokratik dövlətləri birləşdirə bilən beynəlxalq mühit formalaşmalıdır. AQS-in prioritetlərində qeyd olunduğu kimi, AB-in siyasəti ilk növbədə insan şərəf və ləyaqətinə hörmətə, azadlıq, demokratiya, bərabərlik anlayışlarına, qanunun aliliyinə, insan hüquqlarının təminatına və milli azlıqların hüquqlarının qorunması dəyərlərinə əsaslanır.

Avropa Birliyi 2004-cü ilin iyununda Avropa Komissiyasının strateji planına əsaslanaraq, Cənubi Qafqaz ölkələrini də Avropa Qonşuluq Siyasəti Proqramına qəbul etməyi qərara alınmışdır və bu addım güclənməkdə olan tərəfdaşlıq meyli və Cənubi Qafqazın Avropa məkanına dəvət olunması kimi qiymətləndirilmişdir. Komissiyanın nümayəndələri hər bir ölkə barədə bütün siyasi və iqtisadi sahələri əhatə edən geniş hesabat hazırlamış və onun əsasında 2006-cı ilin ortasında Azərbaycan tərəfi özünün Fəaliyyət Planını Avropa Komissiyasına təqdim etmişdir. Uzun çəkən danışıqlardan sonra, hər iki tərəf planı qəbul etmiş, 2006-cı ilin noyabr ayının 14-də Brüsseldə imzalanma mərasimi keçirilmişdir. Bundan başqa, digər Cənubi Qafqaz ölkələrindən fərqli olaraq, Azərbaycan və Avropa İttifaqı arasında Enerji memorandumu da imzalanmışdır. Sənəddə Azərbaycanın karbohidrogen ehtiyatlarının hasilatı və nəqlində əhəmiyyəti xüsusilə vurğulanmış və Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsünün uğurla yerinə yetirilməsi yüksək qiymətləndirilmişdir.

Müqavilənin yüksək səviyyədə - Azərbaycan Respublikası Pprezident İlham Əliyev və Avropa Birliyinin sədri Barroso arasında imzalanması ölkəmizin əhəmiyyətinin göstəricisidir. Bununla yanaşı, AB üçün xüsusi əhəmiyyət kəsb edən enerji təhlükəsizlik problemlərinin Azərbaycanda demokratik və iqtisadi islahatların keçirilməsi məsələsini ikinci plana salması təhlükəsi də yüksəltmişdir. Ümumiyyətlə, Fəaliyyət Planının və Avropa Qonşuluq Siyasətinin müzakirəsi bu siyasətə qoşulan post-sovet ölkələrindən fərqli olaraq, Azərbaycanın rəsmi dairələrində böyük maraq doğurmamışdır. Prezidentin sərəncamı ilə hələ 2005-ci ildə baş nazirin müavini A.Şərifovun başçılığı ilə yaradılmış Avrointeqrasiya

üzrə komissiya demək olar ki, fəaliyyət göstərməmiş, onun yalnız bir iclası keçirilmişdir. 2006-cı ildən Avropa Qonşuluq Siyasəti məsələləri ilə respublika Xarici İşlər Nazirliyi məşğul olur.

Gürcüstandan, Ukraynadan, Moldovadan fərqli olaraq, Azərbaycan hökumətinin *(əsasən Xarici İşlər Nazirliyinin)* vətəndaş cəmiyyəti ilə AQS çərçivəsində əməkdaşlığına maraq göstərməsinə və bir sıra görüşlər keçirməsinə baxmayaraq, hələ də müntəzəm məsləhətləşmə formasını almamışdır. Müqayisə üçün deyək ki, Gürcüstanda Avropa ilə İnteqrasiya Komitəsinə baş nazir Zurab Noqaydeli başçılıq edir. İctimai iştirak dövlət tərəfindən yaradılmış Şura və layihə üzərində işləyən QHT-lərin sərbəst birliyi ilə təmin edilir. Ukraynada Razumkov Fondu hökumətlə əməkdaşlıq edərək, Fəaliyyət təklif və implementasiya qaydalarını təqdim etmişdir. Azərbaycanda isə ilk addım kimi 2007-ci ilin iyunun 18-də XİN-in, vətəndaş cəmiyyətinin nümayəndələrinin və Avropa Evi təmsilçilərinin keçirtdiyi konfransı xüsusi qeyd etmək olar.

Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin Avropa inteqrasiyası məsələlərinə ilbəil marağı artır. AAMİK-in həmsədri R.Musabəyovun keçirdiyi rəy sorğusuna görə, bir neçə il öncə Azərbaycan vətəndaşlarının 23-25% hesab edirdi ki, ölkəmiz həm Avropa, həm də MDB ölkələri ilə eyni səviyyədə əməkdaşlıq etməlidir. 2006-cı ildə isə bu göstəricilər fərqli olmuş, respondentlərin 45% özlərini Avrointeqrasiya tərəfdarları kimi təqdim etmişlər. MDB tərəfdarları isə yalnız 15,5% təşkil etmişdir. Vətəndaş cəmiyyətinin formalaşması və onun ölkə əhalisi üçün ən böyük əhəmiyyət kəsb edən problemlərin müzakirəsində fəal iştirakı Avropa İttifaqının dəyərlərindən biri olmaqla yanaş, həm də Avropa dövlət idarəçiliyi standartlarına yiyələnmək deməkdir. Bir il əvvəl məhz bu məqsədlə fəaliyyətə başlamış Azərbaycanın Avrointeqrasiya üzrə Milli İctimai Komitəsinin (AAMİK) səyləri nəticəsində xarici işlər, ekologiya və təbii sərvətlər nazirlikləri ilə müəyyən əməkdaşlığa nail olunmuşdur. AAMİK Azərbaycanın Avropa Qonşuluq Siyasətinə dair Fəaliyyət Planını böyük çətinliklə əldə etməsinə baxmayaraq, öz rəy və tövsiyələr paketini vaxtında təqdim edə bilmişdir.

Avrointeqrasiya baxımından müsbət hal kimi 2007-ci ilin iyun ayında Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyasının prioritetlərinin dərcini qeyd etmək olar. Ən mühüm amil isə bu prioritetlərdən biri kimi Azərbaycanın Avro-Atlantik məkana inteqrasiyasının göstərilməsidir. Avropa ölkələri ilə iqtisadi əlaqələrin inkişafı əsasən enerji sektorunu əhatə edir. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri bu istiqamətdə ilk faktorlardan biri kimi qiymətləndirilə bilər. 2007-ci ilin iyun ayının 19-da və 20-də Bakıda keçirilmiş QUAM ölkələrinin sammitində təşkilata daxil olan dövlətlər uzunmüddətli tərəfdaşlıq haqqında niyyətlərini təsdiqləmiş, Avro-Atlantik məkana inteqrasiyanı strateji məqsəd kimi müəyyən etmişdilər. Bu isə ilk növbədə NATO və AB-ilə əməkdaşlığın genişlənməsini nəzərdə tutur.



## Tural Hüseynli

*Tural Hüseynli - Azərbaycan Turizm İnstitutu Qida Məhsulları Mühəndisliyi fakultəsinin tələbəsidir. Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) Gənclər Təşkilatının Beynəlxalq İşlər üzrə müavinidir.*

# Ümumdünya Ticarət Təşkilatı

Ümumdünya Ticarət Təşkilatı *(ÜTT, ing. World Trade Organization)* 1995-ci ildə Tariflər və Ticarət üzrə Baş Sazişin *(GATT – General Agreement on Tariffs and Trade)* varisi kimi yaradılmış beynəlxalq təşkilatdır. ÜTT dövlətlər arasında ticarətin qlobal qaydalarını müəyyənləşdirən yeganə beynəlxalq təşkilatdır. Onun əsas funksiyası ticarətin tarazlı, maneəsiz, ehtimal olunan şəkildə və azad aparılmasını təmin etməkdir. Məqsəd üzv ölkələrin əhalisinin rifah halını yaxşılaşdırmaqdır. ÜTT çoxtərəfli ticarət sazişləri əsasında ölkələrarası ticarət münasibətlərinin tənzimlənməsini həyata keçirir. Təşkilat yeni olsa da, çoxtərəfli ticarət sistemi 1940-50-ci illərdən etibarən GATT çərçivəsində yaradılmışdır. Belə ki, ötən 50 il ərzində dünya ticarətində inanılmaz artım müşahidə olunur. Məhsul ixracı orta hesabla ildə 6% artmış, 1997-ci ildə ümumi ticarət 1950-ci illə müqayisədə 14 dəfə yüksəlmişdir. GATT və ÜTT iqtisadi artıma təkan verən güclü və perspektivli ticarət sisteminin yaradılmasına köməklik göstərmişlər. ÜTT-nin dünya ticarətinin 97% artımını əhatə edən 153 üzvü var. 30-a yaxın ölkə ilə üzvlük barədə danışıqlar davam etdirilir. ÜTT-nin qərarları bütün üzv ölkələrdə ölkə parlamentləri tərəfindən ratifikasiya olunur.

**Fəaliyyəti.** Təşkilatın sistemi GATT çərçivəsində aparılmış bir sıra ticarət danışıqları mərhələlərindən keçərək inkişaf etmişdir. İlk mərhələlər tariflərin azaldılmasını əhatə edirdi. Lakin, daha sonra danışıqlar anti-dempinq və qeyri-tarif tədbirlər kimi digər məsələləri də əhatə edirdi. Eyni zamanda, 40 ölkənin hökumətləri informasiya texnologiyaları məhsulları üzrə azad tariflərlə ticarət

haqqında danışıqları başa çatdırır, 70 üzv isə bankçılıq, sığorta, qiymətli kağızlar və maliyyə informasiyası sektorlarında ticarətin 95%-ni əhatə edən maliyyə sektoru üzrə razılaşmanı əldə ediblər. 2000-ci ildə kənd təsərrüfatı və xidmət sahəsində yeni danışıqlara başlanılmışdır. 2001-ci ilin noyabr ayında Qatarda ÜTT-nin Nazirlərin 4-cü Konfransından qəbul olunmuş qərara əsasən, hazırda bu artıq daha geniş iş proqramına çevrilmişdir (Doha İnkişaf Proqramı – Doha Development Agenda). Qeyd olunan proqram danışıqlar digər fəaliyyətləri də nəzərdə tutur: qeyri-kənd təsərrüfatı tarifləri, ticarət və mühit, subsidiyalar və anti-dempinq kimi ÜTT qaydaları, investisiyalar, rəqabət siyasəti, ticarətin asanlaşdırılması, dövlət təchizatında şəffaflıq, əqli mülkiyyətin qorunması və bir sıra digər məsələlər.

ÜTT Sazişləri Ticarətin mümkün qədər ədalətli və azad olduğunda necə əmin ola bilərik? Danışıqlar qaydaları və onların daimiliyi vasitəsilə. ÜTT qaydaları və sazişləri üzv dövlətlər arasında danışıqların nəticəsidir. GATT hazırda əmtəə ticarəti üçün əsas qaydaların toplandığı vəsaitidir. Uruqvay Raundu qeyd olunanlarla yanaşı xidmət sahəsində ticarətin qaydalarını yaratmış, habelə əqli mülkiyyətlə bağlı aspektlər, mübahisələrin həlli və ticarət siyasəti ilə bağlı məsələləri nəzərdən keçirmişdir. 60 sazişdən və müxtəlif öhdəliklərdən (iş qrafiklərindən) ibarət 30 min səhifəlik son toplu gömrük tariflərinin aşağı salınması və xidmətlər bazarının daha açıq olması kimi müxtəlif sahələrdə fərdi üzvlər tərəfindən hazırlanmışdır.

Bu sazişlər vasitəsilə ÜTT-nin üzvləri onların hüquq və vəzifələrini müfəssəl şəkildə çərçivələyən diskriminasiyasız ticarət sistemini tətbiq edirlər. Hər bir ölkə öz ixracına başqa ölkələrin bazarlarında ədalətli və davamlı münasibətin olacağına təminat alır. Və ölkələrin hər biri öz bazarlarına gələn idxala eyni münasibət bəlləniləcəyini öhdəsinə götürür. Sistem həm də inkişafda olan ölkələrə öhdəliklərin yerinə yetirilməsində bir qədər azadlıq verir.

**Məqsəd və vəzifələri.** ÜTT-nin əsas məqsədi beynəlxalq ticarətin maksimum dərəcədə liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılması, iqtisadi inkişafın təminatı, insanların həyat səviyyəsinin yüksəldilməsidir. ÜTT-nin əsas

vəzifəsi çoxtərəfli ticarət danışıqlarının Uruqvay Raundu nəticəsində formalaşmış Sazişlər Paketi əsasında üzv ölkələr arasında ticarət-iqtisadi münasibətlərin tənzimlənməsindən ibarətdir.

**Prinsipləri**:

- "ən əlverişli rejim" *(üzv ölkələr üçün eyni ticarət şəraitinin yaradılması);*
- "milli rejim" *(idxal olunmuş əmtəə və xidmətlərlə yerli mal və xidmətlər arasında ayrı-seçkiliyə yol verilməməsi);*
- ticarətin tənzimlənməsində tarif metodlarına üstünlük verilməsi;
- ticarətdə kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılması;
- ticarət siyasətinin aydın və şəffaf olması;
- daxili bazarların ancaq ÜTT qaydaları əsasında qorunması;
- azad rəqabət üçün əlverişli şərait yaradılması;
- ticarət mübahisələrinin danışıqlar yolu ilə həll edilməsi.

**Üzvlük**. Dövlətlərin ÜTT-yə üzv olmaqdan əsas məqsədlər aşağıdakılardan ibarətdir:

- Dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesini sürətləndirmək;
- ÜTT-yə üzv olan ölkələrin bir-birinə verdikləri güzəştlərdən faydalanmaq;
- Dünyanın əksər ölkələri ilə ÜTT tərəfindən qəbul edilmiş ümumi qaydalar əsasında ticarət əməliyyatları həyata keçirmək;
- ölkədə aparılan iqtisadi islahatlara beynəlxalq təşkilatlar və eləcə də ölkələr tərəfindən yardımın artırılmasına nail olmaq;

**İnkişaf etməkdə olan ölkə *(İEOÖ)* status.** ÜTT üzvlərinin təxminən 65%-ni inkişaf etməkdə olan ölkələr təşkil edir. Bu statusa malik olmaq həmin ölkələr üçün xüsusi hüquqların verilməsini nəzərdə tutur. Belə ki, ÜTT-nin əksər sazişlərində onlara dair xüsusi yanaşmanı əsaslandıran müddəalar vardır. "İnkişaf etməkdə olan ölkə" statusunun üstünlükləri bunlardır:

- ÜTT Sazişlərinin tələblərinə cavab vermək və üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirmək üçün İEOÖ-lərə daha uzun müddət və əlavə vaxt verilməsi;
- ÜTT çərçivəsində müəyyən qərarlar *(antidempinq, ticarətdə texniki maneələr və s. üzrə)* qəbul edilərkən İEOÖ-lərə xüsusi yanaşmanın həyata keçirilməsi;
- müxtəlif xarakterli *yardımların (heyvan və bitki sağlamlığı standartları, texniki standartlar, telekommunikasiya və s. ürzə)* göstərilməsi;
- Kənd təsərrüfatının subsidiyalaşdırılması üzrə məhdudiyyət limitini müəyyən edən de minimis göstəricisinin İEOÖ-lər üçün 10% müəyyən olunması;
- tədiyyə balansı ilə əlaqədər problemlərin həllində xidmətlərlə ticarətin məhdudlaşdırılmasından istifadə etmək imkanının verilməsi;
- xarici maliyyə vəziyyətini yaxşılaşdırmaq və iqtisadi inkişaf proqramlarının reallaşdırmaq məqsədilə İEOÖ-lərin idxalı məhdudlaşdırmasına yol verilməsi;
- texniki qaydaların, standartların, keyfiyyətin qiymətləndirilməsi prosedurları və sanitar və fito-sanitar tədbirlərin hazırlanması və həyata keçirilməsi zamanı İEOÖ-lərin xüsusi ehtiyaclarının nəzərə alınması;
- anti-dempinq haqqında ÜTT Sazişində anti-dempinq tədbirləri həyata keçirərkən şəmin ölkələrdəki reallıqlara xüsusi diqqət yetirilməsi və s.

Azərbaycan Respublikasında ÜDM-in ümumi həcmində neft sektorunun xüsusi çəkisinin 53,1% olması, ixracın 84%-nin neft və neft məhsullarının payına düşməsi, milli iqtisadiyyatın "Holland sindromu" xəstəliyinə tutulması ehtimalının istisna olunmaması, torpaqlarımızın 20%-nin işğal altında olması, ölkədə hər səkkiz nəfərdən birinin qaçqın olması ölkəmizin ÜTT-yə İEOÖ statusu ilə üzv qəbul olunmasını əsaslandıran arqumentlər kimi istifadə oluna bilər. ÜTT-yə üzvolma danışıqları zamanı kənd təsərrüfatının ölkə iqtisadiyyatının aparıcı sahəsi olması, aqrar sektorun yaxşı ənənələrinin olması, bu sahənin inkişafı üçün əlverişli aqroiqlim ehtiyatlarının mövcudluğu, ölkə əhalisinin yarıdan çoxunun kənd yerlərində yaşaması faktları xüsusi vurğulanmalıdır.

ÜTT leksikonunda «kənd təsərrüfatında daxili yardım tədbirləri» dedikdə dövlət tərəfindən kənd təsərrüfatına və bu sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinə subsidiyalar verilməsi və ya dəstək göstərilməsi başa düşülür. Azərbaycan Respublikasının ÜTT-yə üzv olması prosesində kənd təsərrüfatı üzrə aparılacaq gələcək danışıqlarda aşağıdakı prinsiplərin gözlənilməsi məqsədəuyğun hesab edilir:

- 10%-lik *de minimis* həddinin əldə olunması mümkün olmadıqda, 5-10% arasında hər hansı həddin əldə olunmasına səy göstərmək;
- Azərbaycana inkişaf etmiş ölkə kimi yanaşacaq üzv ölkələr presedent kimi Moldova, Gürcüstan, Ermənistan və s. ölkələri nümunə gətirdikdə əsaslı arqumentlər irəli sürmək;
- «İnkişaf etməkdə olan ölkə» statusunun əldə edilməsi ehtimalının az olmasını nəzərə alaraq, danışıqların müəyyən mərhələsində ölkəmizin bütövlüklə deyil, onun kənd təsərrüfatı sektorunun inkişaf etməkdə olduğu arqumentini irəli sürmək;
- Yaxın gələcəkdə sürətlə artması gözlənilən neft gəlirlərinini əsas gətirməklə, aqrar sektorun dəstəklənməsi üçün maliyyə vəsaitlərinin mövcud olacağını israrla bildirmək;
- Holland sindromu təhlükəsini əsas gətirməklə, qeyd olunan sindromun kənd təsərrüfatına göstərə biləcəyi mənfi təsiri neytrallaşdırmağın əsas metodlarından birinin məhz aqrar sektorun dəstəklənməsi olmasını diqqətə çatdırmaq.

# QEYD

Bu məqalələr toplusu Konrad Adenauer Fondu və Azərbaycan Avropa Hərəkatının 6-25 may 2013-cü il tarixində keçirdiyi "Avrointeqrasiyada Vətəndaş Cəmiyyətinin Rolu" adlı layihənin tərkib hissəsidir. Məqalədəki fikirlər müəlliflərin şəxsi mülahizələridir və tərəfdaşlar buna görə heç bir məsuliyyət daşımır.

Konrad
Adenauer
Stiftung